«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 12 may (Bazar ertəsi günü) tarixli 178-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Düşənbə, 11 şabanül-müəzzəm sənə 1337.
12 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

BİRİNCİ MÜSƏLMAN TƏVƏLLÜDXANASI

Yekşənbə [bazar] günü may ayının 11-də mama Gövhər xanım Qazızadə tərəfindən müslimələrə məxsus olmaq üzrə xüsusi təvəllüdxana açılır. Vəzi-həmil edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Doktor Tsentner konsultasiya icra edir. Armyanski 13, telefon: 58-39.

ZABASTOVKAYA DAİR

Mayıs ayının 6-sından etibarən tətili-ümumi elan edildi. Hökumətin Parlamanda verdiyi bəyanatından və ümumun gördüyündən məlum oldu ki, "iqtisadi" namı [adı] ilə pərdələnmiş bu yeni tətil əsla və qəta [qətiyyən] iqtisadi olmayıb, bütün-bütünə siyasi bir amalın qazanılması üçün yapılmış bir hiylədir ki, onun da məqsədi istibdad boyunduruğundan yenicə qurtarmış Azərbaycanı dübarə bir boyunduruq altına soxmaq idi.

Rusiyanın istibdadını da gördük, sosialist namı ilə şöhrət tapmış bolşeviklərini də gördük. Dağıstanlıların qanını axıdan bugünkü Denikin, Lyaxovlarını da gördük.

Kənardan gəlmə ünsürlərin idarəsi "ləzzətini" hamıdan artıq müsəlman füqərayi-kasibəsi anlamışdır. Çünki zərbənin ən böyüyü, xarici qapazının ən ağırı hər yerdə və hər vaxtda o biçarələrin başına dəymişdir. Bu acı həqiqəti müsəlman fəhlələri ilə bərabər, bolşevik rəisləri də gözəlcə bilirlər ki, özgələrin bir bu qədər cəfa və bəlasına davam gətirmiş müsəlman fəhlələri artıq sosialistlərin vədə etdiyi "behiştinə" aldanmayacaqlar. Odur ki, məsələyə "iqtisad" maskası geydirilməkdən başqa, həriflər ayrı bir çarə tapmamışlardı. Lakin zənn etməyirəm ki, müsəlman fəhlələrinin arasında öylə sadəlövhləri tapılsın da Nikolayın jandarmalarını və bolşeviklərin də Mart hadisatını bu tezlikdə unudub, bəzi kənardan gəlmə cibi boş lotuların yağlı vədələrinə aldansınlar.

Burası bizim üçün mühəqqəqdir [şübhəsizdir] ki, fəhlələrimiz hiyləkarların hiylələrinə daha aldanmayırlar. Şükürlər olsun ki, milləтimizin ənvai [müxtəlif] siniflərı artıq dost ilə düşmənə fərq qoymağa başladılar. Binaənileyh [ona görə], ümid bağlamaq olar ki, müsəlman fəhlələri döşlərini gərib müqabildə dayandıqları üçün zabastovkaçılar ürəyində bəslədikləri müfsid [fitnəkar] məramlarına nail olammazlar. Məsələnin burası azərbaycanlıları maraqlandıran və təsəlliyab qılan [təsəlli edən] bir cəhətidir. Demək ki, zabastovkaçıların müsəlman fəhlələrindən ibarət olmuş olan ən böyük şahpərləri [qanadları] kəsildiyindən dolayı, tək qanadlı qalıb uça bilməyəcəklər. Bununla belə, bəzi işləri cüzi də olsa, təxirə salmaq ehtimalı vardır. Məsələnin ruhu, əsası bundan ibarətdir ki, Bakının sənaye və texnik işlərinin mühüm fənləri acnəbi ustalarının əlindədir. Zatən zabastovkaçıların ən böyük istinad və ümidgahları həmin bu texnik ustalarıdır ki, bunların tətili sayəsində tamam məişəti dayandırmaq istəmişlər.

İştə, bizi düşündürən həman bu texnik işləridir ki, xaricilərin əllərində davam edib durduqca, bir bu qədər əhalini hər neçə ayda bir dəfə zabastovka qorxusuna mübtəla edəcəklər. Bəzi tələbatın qəbulu ilə bugünkü zabastovka basdırılarsa, ehtimal ki, bir neçə aydan sonra yenə təkrar olunar. Həm də bundan daha böyük bir miqyasda. Zira bununla tətilə müsaid şərtlərin önü alınmayır. Zabastovkanın rəddi üçün bu, səthi bir çarədir. Madam ki, zabastovkaçıların əsləhələri [silahları] – ki xüsusi ustalıqlardan ibarətdir – onların əllərində davam edib qalacaqdır, yeni zabastovkaların da ardı-arası kəsilməyəcəkdir. Bunun üçün dərin bir çarə lazımdır ki, o da bir çox texnik məktəbləri açmaqdan ibarətdir. Hər xarici sənətkarı qarşısında amadə [hazır] özü kimi bir sənətkar görməzsə, meydanda özünü tək görərək istədiyini yapar, saxta iş görər, can yandırmaz, kefi nə istəsə, onu müzayiqə etməz, hətta bəzi övqat [bəzi vaxtlar] üzərimizə qarşı xəyanət kimi canilikdən də əl çəkməz.

Xülasə, birdəfəlik xaricilərin qəyyumçuluğundan qurtarmaq üçün indidən bir çox ustad və texnik hazırlamalıdır. Yoxsa müşahidə etdiyimiz bu zabastovkaları yenə dəfəat ilə [dəfələrlə] təkrar görəcəyiz, nizam və məişətimiz pozulacaqdır.

F[ərhad] A[ğazadə]

SÜLH ƏTRAFINDA

(Royter acentastvasından)

Almaniyaya verilən sülh şəraiti

Çaharşənbə [çərşənbə] günü Versalda sülh müahidənaməsi [sazişi] alman nümayəndələrinə verilmişdir. Müttəfiq dövlətlər ancaq bu müahidənamədə yazılan şərait üzrə Almaniya ilə sülh əqd etməyə [bağlamağa] razıdırlar. Bu müahidənamədə öylə beynəlmiləl sazişlər bərpa edilmişdir ki, bunlar ancaq gələcəkdə müharibəni rədd etmək qəsdi ilə vücuda gətirilmişdir. Ona görə Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] müqavilənaməsi bu müahidəyə daxil edilmişdir. Fəhlə məsələsi haqqında beynəlmiləl saziş elan edilibdir. Müahidənamə gücə mindiyi gündən idareyi-əsgəriyyə [hərbi rejim] ləğv edilib, düşmən tərəflər arasında rəsmi münasibat başlanır. Almaniya 1870-ci il müahidənaməsinin [sazişinin] ləğv edilməsinə razı olmalıdır. Bu müahidənamə mövcibincə [əsasında] Belçika bitərəf hökumət hesab olunub və Gersaalın mübahisəli torpağı ilə Prussiya Gersaalının bir hissəsi üstə Belçikanın hakimiyyətini etiraf etməkdən ibarət idi. Fransa ilə sərhəd 1848-ci ildə olan sərhəd olmalıdır. Bu qərar üzrə Fransa Elzas-Loreni geri alır. Almaniyanın ixtiyarı yoxdur ki, Reyndə 50 kilometrə məntəqədə istehkamat yapıb müsəlləh [silahlı] qoşun saxlasın. Bu məntəqədə istehzari-əsgəriyyəni [əsgər yığmağı] yüngülləşdirən hər cür manevr və səfərbərlik qadağan edilir.

Saar hövzəsinin kömür mədənləri Fransaya keçir. Bu oblast Cəmiyyəti-Əqvamca təyin edilən komisyon tərəfindən idarə ediləcəkdir. Bir qədər vaxt keçdikdən sonra buranın müqəddəratı rəyi-amm [referendum] ilə həll ediləcəkdir. Almaniya hökuməti Almaniya Avstriyasının və Çexslovak dövlətinin istiqlaliyyətini təsdiq etməlidir. Almaniyanın sərhədi 1914-cü il sərhədi olacaqdır. Almaniya Yuxarı Sileziya, Poznan və Vislanın sol kənarında olan Qərbi Prussiyanın bir hissəsini Lehistana [Polşaya] güzəşt etməlidir.

Almaniya öz müstəmləkələrini güzəşt etməlidir, hakəza [beləliklə], o müstəmləkələrdə olan haqqını Müttəfiq dövlətlərə vagüzar etməlidir [tapşırmalıdır]. Bundan əlavə, Almaniya Mərakeşdəki haqqından vaz keçməlidir. Almaniya İngiltərənin Misir üzərində olan haqqı-himayəsini təsdiq etməlidir. 1914-cü il 4 avqust kapitulasyonundan və Misir ilə bağlanan əhdnamədən vaz keçməlidirlər. Misir işlərinə aid İngiltərə ilə sair dövlətlər arasında olan danışığa qarışmamalıdırlar.

Süveyş kanalından azad keçmək üçün Türkiyəyə verilmiş olan haqq İngiltərəyə verilməlidir. Misirdə olan Almaniya təbəələrinin xüsusi əmlakı haqqında Mərakeş və sair yerlərdə olan qanunlar tətbiq ediləcəkdir. İngiltərə-Qahirə malları Almaniyaya öz ixtiyarı ilə göndəriləcəkdir ki, necə ingilis malları göndərilir. Helqoland və Dünedə olan təhkimatı [istehkamları] almanlar özləri öz hesablarına sökməlidirlər.

Almaniya mükəmməl istiqlaliyyəti təsdiq etməlidir. (Burada teleqraf cümləsi buraxılmışdır.) Burası da məlumdur ki, sülh imza edildiyi zaman İtaliya nümayəndələri isbati-vücud [iştirak] edəcəklərdir. Almaniyaya müahidənaməni imza etmək üçün iki həftə vaxt verilməlidir. Bu müddətdə sülhü imza edib-etməyəcəyini həll etməlidir. Heç bir şifahi müzakirat qəbul edilməyəcəkdir. Almaniyaya müsaidə verilmişdir ki, təhrirən [yazılı surətdə] təkliflərini bildirsin.

Marşal Hindenburq Ebertə xəbər vermişdir ki, sülhü imza edən kimi ali komandanlıqdan əl çəkəcəkdir.

Royterə xəbər verilir ki, İngiltərənin rəyi böylədir: London müahidəsinə görə, Triest, Pola və Dalmaçiyanın bir hissəsi İtaliyaya keçir, Fiume isə Kroatiyaya [Xorvatiyaya] keçəcəkdir. İngiltərə İtaliyaya təklif edir ki, öz mənafeyindən ötrü bəzi iddialarından vaz keçsin.

QƏZETƏLƏRDƏN

Könüllü orduda olan fransız nümayəndəsinin məlumati-rəsmiyyəsi

Rostovda müntəşir [nəşr olunan] "Priazovski kray" qəzetəsinin 84-cü nömrəsində zeyldəki [aşağıdakı] fransız məlumati-rəsmiyyəsi dərc edilmişdir.

Aprelin 24-də Rostovda olan fransız konsuluna Könüllü orduda olan fransız heyəti rəisindən zeyldəki təcili teleqram göndərilmişdir:

"Təvəqqe edirəm ki, Fransada hökumət təbdili [dəyişikliyi] və Fransanın Könüllü orduya qarşı vəziyyətin[in] dəyişməsi xüsusunda olan şayiələri təkzib edəsiniz. Rəisi-vükəla Klemanso öz müttəfiqləri ilə müttəhidülrəy [birgə] bolşevizm əleyhinə mübarizədə davam edir. Fransız qoşunlarının Odessadan və Krımdan çıxması Fransanın Könüllü orduya qarşı vəziyyətini dəyişdirməsinə, mənən və maddətən könüllülərə müavinət etməyəcəyinə dəlalət etməyir. Gələcək bunların həpsini isbat edəcəkdir."

Şimalda bolşeviklərin məğlubiyyəti

Arxangelskdən London qəzetələrinə xəbər verirlər ki, Murman cəbhəsində İngiltərə dəstələri bolşevikləri ciddi surətdə məğlub etmişlər. Bolşevik əsgərləri böyük tələfat verib, təcili surətdə cənuba çəkilməkdədirlər.

DAĞISTAN ƏHVALI

Təkzib

Azərbaycan Hökuməti nəzdində olan Dağıstan siyasi nümayəndəsi tərəfindən:

(Rəsmi)

Bu axır günlərdə Bakı qəzetələrinin bir neçələrində bir xəbər nəşr edilmişdi ki, guya Dağıstan Cümhuriyyətində inqilab olub, Şura hökuməti bərpa edilmişdir. Ələlxüsus "Nabat" qəzetəsi mövsuq [etibarlı] mənbələrdən aldığı məlumata görə, "Dağıstan Cümhuriyyətində inqilaba qədər" ünvanlı üç sütun məqalə dərc edib qışqırıq salmışdır. Dəmiryol tətili müddətində və teleqraf işləmədiyindən hökumət ilə münasibat olmadığına görə, siyasi nümayəndəlik indiyə qədər bu xəbəri təkzib etməkdən saqınmışdır. Mayın 8-də Şamilqaladan (Petrovskdan) gələn poçta paroxodu ilə alınan hökumət poçtasının verdiyi məlumata görə, bu axır həftə müddətində nəşr edilən yalan xəbərləri qəti surətdə təkzib etməyə şübhə buraxmayır.

Siyasi nümayəndə vazifəsini müvəqqətən ifa edən:
B. Mallaçıxan

ƏHMƏD BƏY AĞAYEV ƏFƏNDİNİN MÜHAKİMƏSİNƏ BAŞLANDI

İki buçuq ay [iki ay yarım] bundan əvvəl Əhməd bəy Ağayev kəndi xanəsində tövqif [həbs] olundu. Bundan maəda [bundan başqa], ümumi tövqif olan ittihadçılar 158 kişidən ibarətdir. Əhməd bəy Ağayev Darülfünuni-Osmani Ədəbiyyat fakültəsində müdərris və "Tərcümani-həqiqət" qəzetəsində baş mühərrir olub, İstanbulda qayət böyük şöhrət qazanmış idi. Şu anda Əhməd bəy Ağayev ilə bərabər Darülfünunun ümumi müdiri Xalid Ziya bəy, Ziya Gökalp – ictimaiyyat müdərrisi [sosiologiya müəllimi] polis müdiriyyəti binasında dördüncü qatda həbsdədir və bunlara baxmayaraq hər günə fransızların mədəniyyətsizliyi haqqında məqalələri oxunmaqdadır.

Balada mühərrər [yuxarıda yazılı] olan şəxslər ilə 1919 sənəsində nisan ayının 30-cu günündə mühakiməsinə başlandı. Fəqət onu demək istəyirəm ki, Əhməd bəy əfəndi nasıl ki [Osmanlıda], öylə də Qafqaziyada müstəsna bir zatdır. Zatən böylə bir mütəfəkkiri Azərbaycanda aradığımıza və əhvalı ilə düşünməməyimizə təəssüflər edirəm. Bundan maəda [bundan əlavə], şu anda onu bizlər əldə etməyimiz icab edir [lazım gəlir]. Məmafih [bununla belə], Azərbaycan Cümhuriyyətindən bir qaç zəvat [şəxs] müməssil [nümayəndə] olaraq intixab edib [seçib] də göndərmək üçün hökumətimizin nəzər-diqqətini cəlb edirəm.

Ə. Qəniyev

TƏBRİK

İstanbulda daima Cənubi Qafqaziyadan fəna həvadislər [pis xəbərlər] qəzetələrdə oxunurdu. Məmafih [buna baxmayaraq], şimdi Bakı şəhərinə varid olub da [gəlib də] Azərbaycan Cümhuriyyətini mültəzəm [sayılan; dəyərli] və əhalini məmnun olaraq [görmək], həyatda qapanmayacaq pək dərin bir yaranın ən öldürücü alamını [ələmlərini, acılarını] tədil etdi [yumşaltdı, azaltdı]. Münəvvər [işıqlı; ziyalı] hökumətimizə və ümumi vətəndaşlarımıza ayrı-ayrı təbrik və təşəkkürlər edirəm.

Ə. Qəniyev

ÜMURİ-XEYRİYYƏ VƏ NAFİƏ NAZİRİNƏ MƏKTUB

Bu günlərdə Parlaman üzvü Cəlil bəy Sultanov tərəfindən Ümuri-Xeyriyyə və Nafiə [Sosial Təminat] nazirinə bir belə məktub yazılmışdır:

Alicənab nazir!

Keçmiş sənə noyabr və dekabr aylarında Zəngəzurda 40 minədək müsəlman xalqı ermənilərin təcavüzündən öz evlərindən, mallarından və dövlətlərindən əl çəkib qaçqın olub hər bir yerə dağılıblar. Bunların barəsində mən və hökumət məmurları vaxtında Bakıya, hökumətə lazım olan məlumatı verib təcili yardım tələb etmişik.

Bizim təkrar teleqramlardan və məktublardan – ki qaçqınlar acından, soyuqdan və həkimsizlikdən gündə yüzlərcə milçək kimi ölürlər – ancaq fevral ayında siz özünüz zəhmət çəkib gedib Zəngəzur qaçqınlarının əhvalını öz gözlərinizlə gördünüz. Və mən belə yad edirəm ki, siz oradan qayıdandan sonra qəzetələrdə bir məqalə yazmışdınız ki, Zəngəzur qaçqınlarının pərişan əhvalını yazmaq və söyləməklə başa gəlməz, ancaq onlara tez və çox yardım lazımdır.

Noyabr ayından bəri 6 ay keçibdir, amma, məəttəəssüf [təəssüf ki], şimdiyədək Zəngəzur qaçqınlarına sizin Nəzarət [Nazirlik] tərəfindən heç bir yardım çatmayıbdır və bunun nəticəsində mühacirlərin acından, soyuqdan və dərmansızlıqdan 40 faizi qırılıbdır.

Şimdi biçin vaxtı yavuqlaşıbdır. Amma o biçarələrin əkinləri ya otarılıb və ya şimdi otarılmaqdadır. Və onların gələcəkdə bir yerə ümidləri qalmayıbdır. Hərgah Nəzarət onlara təcili və külliyyətli yardım etməzsə, şol vaxt o əlbaqi [qalan] 60 faiz də qırılıb fövt [yox] olasıdır.

Buna binaən [buna görə], bu kağızı yazıb sizin nəzərinizi Zəngəzur qaçqınlarına cəlb etmək istəyirəm. Çünki Zəngəzurda qaçqınların ədədi üç və ya dörd dəfə Azərbaycanın sair yerlərindən artıqdır. Və hələlikdə camaatın əhvalını düşünübəni, bu aşağıda qeyd olunan maddələri nəzəri-etibarınıza təqdimlə, tez əmələ gəlməsini təmənna edirəm:

1) Lazımdır bu saat Zəngəzura bir çox ixtiyarlı komissiya göndərmək (və mümkün olsa, o komissiyada Parlaman üzvlərindən bir, ya ikisi iştirak etməlidir).

2) Bu komissiya orada özü qaçqınlara öz əli ilə təzə taxıl çıxanadək maaş və pul verməlidir. Gərək nəzarə alaq ki, Zəngəzurda bu saat sağ qalmış və böyük ehtiyacı olan mühacirlər iyirmi minə qədərdir. Bunlara başa 1 pud taxıl verilərsə və ya pudu 60 manatdan hesab olunub da pul verilərsə, şol vaxt bu eylər 1 milyon 200 min manat.

3) Lazımdır mühacirlərin gələcək yerlərinin toxumlanmağı xüsusunu düşünmək və bunun üçün də əvvəlcə gərək hər bir evə labüd bir öküz alıb vermək. Çünki qaçqınların mallarını tamamən ermənilər qarət ediblər və yainki çuma [taun] naxoşluğundan qırılıbdırlar.

Bunlardan əlavə:

4) Həman komissiya gərək orada mühacirlərə toxum və gələcək yemək tədarük etmək üçün yerli əhalinin təmiz və diqqətlilərindən də bir əlavə komissiya təşkil edib də onlara kafi miqdarda para buraxsın ki, onlar şimdidən tədarükdə olsunlar.

5) Mühacirlərin içindən ən böyük ehtiyacda olanlarına (5000 qədərinə) 50 min arşın çit paylamalıdır. Bu çiti Təbrizdə 8-10 manata almaq olar.

6) Başa yarım girvənkə şəkər və çay verməlidir. Və hərgah şəkər mümkün olmasa, şol vaxt başa bir girvənkə kişmiş verməlidir. Çünki Zəngəzurda olan qaçqınlar çaysızlıqdan qızdırma və qeyri pis naxoşluqlar tuturlar.

7) Zəngəzurda bir tibb məntəqəsi və iki-üç feldşerxana açmaq vacibdir.

8) Mühacirləri yerlərinə qaytarmaq üçün gərəkdir ki, onların evlərini tikməyə Nəzarət tərəfindən yardım verilsin və mənim zənnimcə, hər bir evə orta hesabla 500 manat verməlidirlər və bundan ötrü komissiya gedən vaxt əqəllən [ən azı] yarım milyon pul aparmalıdır.

9) Zəngilanda və ya Dondarlı köylərində yetim uşaqlar üçün bir darüleytam [yetimxana] açmalıdır.

10) Bunları yerinə yetirmək üçün komissiya gedən vaxt gərək 3-4 milyon para aparsın.

11) Komissiya getməyini mən təkrar edirəm, çünki Nəzarətin orada olan qulluqçuları şimdiyədək bir iş bacarmayıblar və güman ki, bacara bilməyəcəklər.

Kamali-hörmət və ehtiramla Zəngəzur tərəfindən
Məclisi-Məbusan üzvü
Cəlil bəy Sultanov

ÖMƏR FAİQ ƏFƏNDİ

Qafqaziyada türk çalışqanları və mühərrirləri arasında şərəfli bir mövqe tutan və sənələrdən bəri öz milləti yolunda var qüvvəsi ilə çalışan sevgili Ömər Faiq əfəndi neçə gündür ki, Bakıya varid olmuşdur [gəlmişdir].

Axıska hadisələri əsnasında Ömər Faiq əfəndinin tutulub Tiflisə gətirilməsi və onun Tiflisdə dəfələrlə həbsxanalara salınıb işgəncələrə məruz olması oxucularımıza məlumdur. Ömər Faiq əfəndi Tiflisdə həbsdə ikən Azərbaycan demokratiyası [xalqı] onun azad edilməsini canu-dildən arzu edib, ona əziyyət verənlərə protestolar etmiş idi. Ömər Faiq əfəndi hələ istibdad zamanından başlamış şimdiyə qədər vətən və milləti yolunda yorulmaqsızın çalışmış, fədakaranə və qəhrəmananə bir surətdə öz vəzifəsi ifasından bir an geri durmamışdır. Faiq əfəndi həmişə ümidvarlıqla çalışıb vətəninin və millətinin gələcək rifah və səadətinə yenə ümidvardır. Faiq əfəndi qəzetəmizdə çalışacaqdır. Möhtərəm əfəndini bir bu qədər əziyyət və cəfadan qurtarmalarından və Bakıya gəlmələrindən dolayı kamali-məsərrətlə [böyük şadlıqla] təbrik və təhniyət edəriz [qutlarız].

TƏTİLİ-ÜMUMİ

"İqtisadi" tətilin axırı nə olacaqmış?

"İqtisadi" deyə elan edilmiş olan bu zabastovkanın [tətilin] axırı nəyə müncər olacaqmış [nə ilə nəticələnəcək]? Bu xüsusda edilən təhqiqatdan və külliyyətli miqdarda tutulmaqda olan əslələ və karastılardan [silah və alətlərdən] məlum olur ki, zabastovkaçılar "Staçkom" [Tətil Komitəsi] dedikləri komitənin təhti-idarəsində [idarəsi altında] olaraq Azərbaycan hökumətinə və türk və islam milləтinə qarşı böyük bir qiyam və müsəlləh iğtişaş və inqilab hazırlayırlarmış. Qərar böylə imiş ki, şəhərdə gəzən işsizləri, köhnə saldatları və müsəlman olmayan xarici fəhlələri silahlandırıb, lazım olan yerlərdə top və pulemyot düzəldib, qəflətən hökumət idarələri üzərinə hücum edib idarələri əllərinə alsınlar və şəhərdə böyük bir inqilab əmələ gətirsinlər. Şükürlər olsun ki, xəfi və ələni [gizli və açıq] polis dairələrimiz pişəzvəqt [qabaqcadan] işdən xəbərdar olub silahları tutdurmaqla, düşmənlərimizin bu qədər böyük xəyanətinə mane olubdurlar.

Roxlin nə üçün buraxıldı?

Mövsuq [etibarlı] mənbədən aldığımız xəbərə görə, Roxlinin buraxılmağına səbəb o olubdur ki, Roxlin hökumət nəzdində kişi sözü veribdir ki, bir də Azərbaycana qarşı hərəkatda iştirak etməsin və təhrik və təşviqatdan əl çəksin.

Bolşevik emissarlarının həbsi

Bu günlərdə polis idarəsinə xəbər verilmişdi ki, bolşeviklərin 5 nəfər başçı emissarları Bakıdan 22 milyon manat Nikolay pulu və telsiz teleqraf makinası aparmaq fikrindədirlər. Bu adamlar Bayılovda olurlar. Dün gecə polis nəfəratı [nəfərləri] evi mühasirə edib, başçılardan ikisini tutmuşlar, üçü gizlənmişdir, onları da tutmaq üçün tədbir görülür. Həbs edilmiş bolşeviklər o qədər pul olduğunu və qaçırmaq istədiklərini danmışlardır. Amma telsiz teleqraf olduğunu və aparmaq istədiklərini boyunlarına almışlar, fəqət yerini deməmişlərdir. Bolşeviklərin evləri axtarılır.

"Tovarişlərin hərəkəti"

Maliyyə Nəzarəti Daxiliyyə Nəzarətinə müraciətən məlum edir ki, mayın 6-da aksiz məmurları kəndi işlərinə məşğul olmaq məqsədilə olaraq işə şüru etmək [başlamaq] istədikdə, tətil etmiş olan qeyri-müsəlman əmələləri onları zorla tətilə məcbur etmək istəmişlərdir. Daxiliyyə naziri həmin müraciəti sərəncamdan ötrü Bakı qubernatoruna göndərmişdir ki, tətil etmək istəməyən əmələlərə qarşı zor göstərilməsinə imkan verməsin.

BAKI XƏBƏRLƏRİ

* Bu günlərdə Ticarət Nəzarətinin kontrolu [müfəttişi] Tağıyev fabrikasının yanından 80 kisə ağ un, 84 tay kağız və karton, iki dənə ağır sandıq tutmuşdur. Sandıq hələ açılmamış olduğundan, içindəki şey məlum deyildir.

Anlaşıldığına görə, bu şeyləri Əli oğlu Nəriman nam [adlı] bir şəxs qayıqla İrana aparmaq istəyirmiş. Mal tutulub gömrükxanaya göndərilmişdir. Bu iş Maliyyə Nəzarətinə mühəvvəl edilmişdir [tapşırılmışdır].

* Bakı qalabəyisi [komendantı] qubernatora məlum etmişdir ki, Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən əmr edildiyinə görə evsiz uşaqları, yetimləri küçələrdən təmizləmək üçün onun tərəfindən lazımi binagüzarlıq [sərəncam] edilmişdir.

Müsəlman tələbələrinin nəzəri-diqqətinə

Mülazim (praporşik) məktəbinə daxil olmaq arzusunda olub da sinnləri [yaşı] əsgərliyə müvafiq olan və olmayan tələbələr özlərini yazdırmaq üçün may ayının 13-nə qədər Parlaman imarətində səhər saat 9-dan 2-yə və axşam saat 5-dən 6-ya qədər tələbələrdən Nərimanov və Ağabəyova müraciət edə bilərlər. Yoldaşlardan xahiş olunur ki, bir yerdə əzimət etmək [getmək] üçün özlərini yazdırsınlar.

Komissiya

Saxta pul

Armyanski-Kamenisti küçələrin küncündə bir qəlp pul fabrikası tapılmışdır. Burada Bakı pulu kəsirmişlər. Müəssisi [təsisçisi] bir müsəlman tələbə imiş. Tələbə həbs, makina, cövhər, daş və sairləri zəbt edilmişdir.

ERMƏNİ MƏTBUATI

Ermənilər və gürcülər

Gürcüstan hüdudu və Ermənistan ilə Gürcüstan arasında hüdud üstə olan münaqişə xüsusunda erməni "Aref" qəzetəsi yazır:

"Gürcüstan iddia eylədiyi hüdud şimalda Qara dəniz sahilindən başlanıb Maykopa, buradan da Qafqaz silsileyicibalı [dağ silsiləsi] üzrə gedib Bəhri-Xəzərin 130 verstliyindən Zaqatala məntəqəsini tutur. Buradan qərbdən cənuba gedib Kür çayını ötərək Tiflis quberniyasını və Ərdahan ilə Oltunu əhatə edərək, Trabzon ilə Rizənin arasından Qara dəniz sahilinə çıxır.

Bu dairə başmaq çeşnisində [forması] olub, təxminən 40 min mürəbbe kilometrə [kvadrat kilometr] bir yer tutur, şimaldan və cənubdan qonşuların Qara dənizə çıxacağını kəsir.

Gürcüstan ilə Ermənistan arasında məchul olan Borçalı və Axalkələk qəzaları 40 mürəbbe kilometrədir. Həmin yerlərdə sükunət edən [yaşayan] əhalinin əksəri ermani olduğunu gürcülər inkar etməməklə belə, iddialarında davam edib deyirlər ki, ermənilər oraya Türkiyədə qırğından qaçıb Ərzurumdan, Vandan, Bitlisdən gəlibmişlər və çörək kasadlığı olduqda çəkirgə [çəyirtkə] kimi çəkilib gedir. Bu aşkar sübut edir ki, ermənilər o yerləri özlərinə vətən hesab etməyirlər. O cəhətə həman yerləri iddia eyləməyə haqları yoxdur. Əgər onlar istəyirlər azad, müstəqil Ermənistanları olsun, haradan gəliblər, getsinlər ora.

Əlavə-əzan [buna əlavə olaraq], Tiflisin cənub tərəfində olan Borçalı uyezdinin Lori məntəqəsi Gürcüstandan ötrü əsgəri [hərbi] böyük əhəmiyyəti vardır. Çünki orası Tiflisin qapısı mənzələsindədir [yerindədir]. Lorini Ermənistanda qoymaq ermənilərin əlinə dolu tapança verib öz başını ona nişanə qoymaq kimi bir iş olar.

O ki qaldı Axalkələyə, orası da qədim əyyamdan gürcü torpağı olub, ruslar Qafqazı işğal edən zaman Gürcüstanda imiş, özü də gürcü tayfasının əsil məkanı olub, milli şairlərin və dahilərin vətənləridir.

Gürcülərin həman dəlillərinə, xüsusən tarixi sübutlarına təəccüb edib deyirlər, Axalkələk əslən Gürcüstan torpağı olmaq dürüstdür, lakin ora əhalisindən hamıdan kəmi gürcüdür ki, ədədləri 500 nüfusdan [nəfərdən] ziyadə deyildir.

Tarixi dəlillərə gəldikdə, məlumdur ki, gərək Axalkələk, gərək Lori ərəblər və fars dövründən bəri neçə dəfələrlə əldən-ələ keçmişdir. Bainhəmə [bununla belə], Lori tarixcə Ermənistan məmləkəti olmaqdan düşmüşdür, çünki Lori ermənilərin Baqratuni sülaləsinin tacgüzarı [tacqoyma yeri] olmuşdur. Sanain isə qədim zamanda ermənilərin ədəbi və dini bir mərkəzi imiş. Sanaində erməni müvərrixi [tarixçisi] Mxitar nam on üçüncü əsrin əvaxirində [axırlarında] Ermənistanın siyasi və dini tarixini tərtib etmişdir. Borçalı qəzasında hər yana tərpənirsən, qədimdən qalma erməni kilsələri, ibadətgahları göza çarpır. Bunların cümləsi sübut edir ki, Sanain ermənilərin milli təməddünü [mədəniyyəti] mənbəyi, padşahlarının anadan olan yerləri imiş."

QARSDA

Qars Müsəlman Şurayi-Millisinin teleqrafı

Ermənistan siyasi nümayəndəsi [Tiqran] Bekzadyan İrəvandan böylə bir teleqraf almışdır:

7 may 1919

"Ermənistan Rəisi-vükəlası [Baş naziri] Qarsdan Müsəlman Şurayi-Millisi sədrindən böylə bir teleqraf almışdır:

Qars oblastının müsəlman əhalisinin vəkalətinə görə, sizi və Ermənistan Cümhuriyyətini təbrik edib mehriban qonşuluğa sadiq qalacağımıza hazır olduğumuzu şəhadət verirəm. Biz də yorulub asayiş, qanuna və dinc zəhmət çəkməyə həsrət qalmışıq. Bu gün sülh və asayişi bərpaedici hökuməti şadlıqla qarşılayırıq. Açıq ürəklə biz sizi qarşılayıb sizin bərpa edəcəyiniz qanun və asayişi sizinlə bərabər mühafizə edəcəyiz."

Müsəlman Şurayi-Millisi sədri
doktor Əsəd bəy Hacıyev

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Sülh ətrafında

"Visla": qəzetdə təhrif edilmişdir.

Əhməd bəy Ağayev əfəndinin mühakiməsinə başlandı

"ittihadçılar": İttihad və Tərəqqi Partiyası üzvləri nəzərdə tutulur.

"Darülfünuni-Osmani": indiki İstanbul Universiteti.

"Tərcümani-həqiqət": İstanbulda 1878-1924-cü illərdə nəşr edilmiş qəzet.

Erməni mətbuatı

"Mxitar": XIII əsr erməni şairi və tarixçisi Mxitar Ayrivanetsi nəzərdə tutulur.

«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 13 may (Çərşənbə axşamı günü) tarixli 179-cu nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası

AZƏRBAYCAN

Səşənbə, 12 şabanül-müəzzəm sənə 1337.
13 mayıs 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

BİRİNCİ MÜSƏLMAN TƏVƏLLÜDXANASI

Yekşənbə [bazar] günü may ayının 11-də mama Gövhər xanım Qazızadə tərəfindən müslimələrə məxsus olmaq üzrə xüsusi təvəllüdxana açılır. Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Doktor Tsentner konsultasiya icra edir. Armyanski 13, telefon: 58-39.

TELEQRAF XƏBƏRLƏRİ

Almaniya kəndçiləri Şura əleyhinə

Berlin - Eylenbarger, Bavariya kəndçilərinin başçısı olmaq sifəti ilə Şura Hökuməti əleyhinə çıxaraq, Münhenə ərzaq buraxmayacağı ilə təhdiddə bulunmuşdur.

- Vürsenberq Şura Cümhuriyyəti əleyhinə səs vermişdir. Sosialist firqələri bir-birinin əleyhinə çalışırlar.

Qara dəniz boyunun ablukası

Sevastopol dairəsində Qara dəniz boyu fransız gəmilərindən əlavə bu günlərdə İstanbuldan gəlmiş ingilis gəmiləri ilə abluka [mühasirə] edilmişdir. Bunların arasında "Kuin Elizabet" nam [adlı] böyük drednot vardır. Abluka son günlərdə dəhşətli xasiyyət almışdır. Müttəfiqlərin gəmiləri Krımdan Odessaya hətta alma aparmağa belə müsaidə etməyirlər. Ablukanı ingilislər idarə edirlər.

Kiyev - Xarici işlər komissiyasına xəbər verildiyinə görə, Gürcüstan Abxaziyaya daxil[i] işlərində mükəmməl muxtariyyət verir.

SÜLH ƏTRAFINDA

Havas agentəliyi xəbər verir ki, dünən Fransa Parlamanında 300 məbus bir manifest imza etmişlərdir ki, Məclisi-Əyan ilə Məclisi-Məbusan müttəfiqən [birgə] çalışsın. Vəkillər böyləliklə Sülh Konfransında Fransa nümayəndələrinin vəziyyətini möhkəmləşdirmək və onlara öz arzularına konfransda nail olmağa imkan vermək istəmişlərdir. Manifestdə təklif edilmişdir ki, Cəmiyyəti-Əqvamın [Millətlər Cəmiyyətinin] rəsmi lisanı fransız lisanı olsun. Cəmiyyəti-Əqvam komisyonu bu rəydədir ki, bu məsələ Sülh Konfransında həll edilməlidir.

QƏZETƏLƏRDƏN

Türkiyədə

"İstanbul" qəzetəsi xəbər verir, Osmanlı Hökuməti Asiyayi-süğraya [Kiçik Asiyaya] iki komissiya göndərir. Birincisi, Daxiliyyə naziri Camal bəyin təhti-sədarətində [sədrliyi altında] İzmirə, digəri isə senator Rəşid paşanın təhti-sədarətində Qara dəniz boyuna gedir. Bunlar bu yerlərdə quldurluğun qətiyyən qarşısına çıxıb idarələri tənzim edəcəklərdir.

- Milli Müdafiə və Donanma Komitəsi sultan həzrətlərinin iradəsi ilə buraxılmışlardır.

- Erməni mənabeyindən [mənbələrindən] verilən xəbərlərə nəzərən, sabiq nazirlər və "İttihad-Tərəqi" komitəsinin başçıları həbsxanada ələddəvam [davamlı surətdə] müşavirədə bulunurlar. Bunlar layihə hazırlayıb öz tərəfdarlarına verirlər. Bunlar Türkiyənin sair qitələri [hissələri] ilə də əlaqədə bulunub özlərinin əvvəlki təbliğatında davam edirlərmiş.

Leninin əndişəsi

"Kommunar" qəzetəsində Leninin böylə bir əmri nəşr edilmişdir:

Yoldaşlar! Şərq cəbhəsində əhval fövqəladə bir surətdə fənalaşmışdır. Bu gün Kolçak tərəfindən Votkinski zavod işğal edilmişdir. Buqulma məhv olur. Kolçak gündən-günə irəliləyir. Xətrə [təhlükə] böyükdür. Biz Peterburq əmələlərindən [fəhlələrindən] xahiş ediriz ki, Şərq cəbhəsinə müavinət [köməklik] üçün hamısı ayağa qalxsın. Bizim müqəddəratımız Şərq cəbhəsində həll ediləcəkdir. Ona görə hamınız Şərq cəbhəsinə azim olunuz [yollanın].

Lenin

DAĞISTAN ƏHVALI

Vladiqafqaz

Könüllülər tərəfindən istila edilmiş olan Vladiqafqaz şəhəri böhran keçirməkdədir. Bahalıq çox artıqdır. Denikinin adamları müntəzəm təşkilatdan acizdirlər. Zəbt etmək və məcburi adam cəm etmək işləri əhalini təngə gətirmişdir. Dağıstanlıların ziyalı taqımı şəhərdə yoxdurlar. Ətrafda olan əhalinin hakəza [eləcə də] şəhərlə heç bir əlaqəsi yoxdur. Bunlar könüllülərdən özlərini kənarda saxlamışlardır. Bolşeviklərlə mübarizə üçün alay təşkili barəsində inquşlara verdikləri ultimatumun heç bir əsəri olmamışdır. General Lyaxov iş başından çəkildikdən sonra dağıstanlılardan qoşun cəm etmək amalı dəfn edilmişdir. Mövsuq [etibarlı] mənbələrdən verilən xəbərlərə nəzərən, könüllülərə inanmış olan çərkəz qitəatı da [birlikləri də] dağılmışdır. Osetinlər də onlara ədavət bəsləyirlər. Şimali cəbhəyə [yollanan] osetin alayı Darq-Kox[dan] o tərəfə getməkdən imtina etmişlərdir. Alay artıq davam etməyir.

VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirinin Suraxanıya aparılacaq şirin suyun yol kirayəsinin əvvəlki qayda üzrə qalması haqqındakı məruzəsindən sonra qət edilmişdir [qərara alınmışdır]:

Nazirin məruzəsi təsdiq edilsin.

- Ticarət və Sənaye nazirinin və Ərzaq nazirinin məən [birgə] Ərzaq Nəzarəti xidmətçilərinə təsviyə [ləğvetmə] haqqı vermək haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Ərzaq Nəzarəti təsviyə [ləğv] edildiyi üçün bütün xidmətçilərinə bilafərqi-sinif və mənsəb təsviyə haqqı verilsin. Evlilərə iki ayın, külfətsizlərə bir ayın məvacibi verilməlidir.

- Posta və Teleqraf nazirinin posta xidmətçiləri üçün ambulatoriya güşadı [açılması] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Məruzə təsviblə [bəyənilməklə], təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılsın.

- Daxiliyyə nazirinin Azərbaycan Cümhuriyyəti bələdiyyə idarələrinə qlasnı intixabı [seçilməsi] haqqındakı məruzəsindən sonra qət edilmişdir:

Daxiliyyə nazirinin qanun layihəsi işbu dəyişikliklərlə təsvib edilsin:

1) "Onu elam etmək [bildirmək]" sözlərindən sonrakı "Azərbaycan qəzetəsi" əvəzində "dövləti rəsmi qəzetələrdə" yazmalı.

2) A) "Hamı istifadə edir" sözlərindən sonra "Azərbaycan Cümhuriyyəti vətəndaşları" əlavə etməli.

B) "Bilafərq" sözündən sonra "təbəiyyət" [vətəndaşlıq] sözünü pozmalı.

C) "Siyahılar" sözündən sonrakı "iyirmi bir sənə"ni "iyirmi sənə" sözü ilə dəyişməli.

5) "İntixabatda [seçkilərdə] iştirak etməkdən məhrum olurlar" sözlərindən sonra "xarici təbəələri" əlavə etməli.

6) "Qlasnılar intixabında" sözündən sonra "hərbi xidmətdə olanlar da" sözlərini əlavə etməli.

7) "Yarısından əskik olmazdı" sözlərini "hamısından əskik olmazdı" sözləri ilə dəyişməli.

NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

- Hal-hazırda qaçqınlara Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] tərəfindən verilən qərzlər [borclar] birdəfəlik olduğu üçün o qədər də gözəl nəticələr verməyir. Binaənileyh [ona görə], Ümuri-Xeyriyyə və Nafiə naziri Vükəla Şurası indində [Nazirlər Kabineti nəzdində] xüsusi bir istiqraz təşkilatının güşadı [açılması] haqqında təşəbbüsatda bulunmuşdur. Bu təriqlə [yolla] fəqət xaraba qalmış təsərrüfatı təmir etmək olacaqdır. Hələ 50-dək cəmiyyət güşadı təsəvvür edilir.

- İşsiz qaçqınlar və füqəra sinifi üçün iş tapmaq qəsdi ilə Ümuri-Xeyriyyə və Nafiə naziri milli təşkilatlara müraciətən, əllərində olan məlumatın pişnihadını [təqdim edilməsini] rica etmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti, Ticarət və Sənaye Nəzarəti etilafa [razılığa] gəlmişdir ki, Şamaxı nahiyə müfəttişinə Mərəzə anbarından 16 min pud buğda buraxılsın.

- Ümuri-Xeyriyyə və Nafiə [Nəzarəti] Qarabağ qaçqınları ehtiyacı üçün Ağdama 50 pud sabun göndərmişdir.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti tərəfindən verilən qanun layihələri qövldən feilə [sözdən işə] gələcək olarsa, işbu mədaxil gələ biləcəkdir:

1) Oyun (qumar) kağızlarından əqəllən [ən azı] 3.500.000 manat.

2) Cümhuriyyətin tamaşaxana biletlərindən 200.000 manat.

3) Dəmir yolları və vapor biletlərinə xüsusi vergi təyin ediləcək: bu məbləğ əqəllən 3 milyon manat.

4) Əcnəbi məmləkətlərdən gələn oyun kağızlarına hər bağlısına 2 manat təyin edilərsə, bundan da böyük mədaxil varid [daxil] olacaqdır.

- Baş Fabrika müfəttişi Məsai Nəzarətindən [Əmək Nazirliyindən] [soruşmuşdur ki,] Nobel qardaşları firmaları fəhlələrindən hangi tətillər barəsində məlumat cəm edilməlidir, zira axırıncı ay zərfində Nobelin başqa-başqa firmalarında tətillər baş vermişdir.

- Maliyyə Nəzarəti Məsai Nəzarətinə xəbər vermişdir ki, beynəlidarə [idarələrarası] komisyonun iclası 12 may axşam saat 7-də təyin edilmişdir.

- Məsai Nəzarəti Daxiliyyə Nəzarətinin 3209 nömrəli əlaqəsinə cavabən xəbər vermişdir ki, Nəzarət xidmətçiləri əsgərlikdən təcil edilmək [əsgərliklərini təxirə salmaq] istəməyərək, istiqlaliyyət və inqilabı müdafiə etməyə hər zaman hazırdırlar.

- Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti Məsai Nəzarətinə müraciətən Suraxanı-Mərdəkan şose yolu təmirini Nəzarət öhdəsinə götürməsini rica etmişdir. Məsai Nəzarəti xəbər vermişdir ki, mütəxəssislər yoxluğundan həman yol təmirini öhdəsinə ala bilməz, fəqət fəhlə vermək kimi iqdamatda ola biləcəkdir [addımlar ata bilər].

- Bir çox dairələrdə və başqa-başqa əşxasda [şəxslərdə] əhalidən cəm edilmiş üşr buğdası qalmışdır ki, bu vaxtadək Hərbiyyə Nəzarətinə verilməmişdir. Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti teleqrafən rica etmişdir, böylə ərzaq hesaba alınsın.

ZAQAFQAZİYA KONFRANSINDA FƏTƏLİ XAN XOYSKİNİN NİTQİ

F. x. Xoyski – "Müsaidənizlə, mən də Azərbaycan Cümhuriyyəti namından [adından] öz səsimizi Zaqafqaziya Konfransında əyləşən millət nümayəndələrinin səsinə mülhəq edəyim [qoşum]. Azərbaycan Hökuməti daima bu nöqteyi-nəzəri təqib eyləmişdir ki, bəzi əsaslı [prinsipial] məsələlərdə buraya cəm olan millətlər nümayəndələri müttəhidülrəy [həmrəy] olmaq və xətti-hərəkətlərini bir etməklə, öz dövlətlərinin daxili işlərində bir səbat və qətiyyət əmələ gətirə bilərlər. Ona görə də Azərbaycan Hökuməti bu kimi iqdamata [təşəbbüsə] həmişə hüsn-təvəccöh göstərib ümid edir ki, birləşmək üçün ən birinci və doğru yol, bilavasitə mübahisəli məsələləri birlikdə həll etməkdir.

Mən ümidvaram ki, bizim Konfransda yığışmağımız və bir-birimizlə görüşməyimiz [nəticəsində], gələcək məsələlərin müzakirəsində tərəflər xırda-para məsələlərin fövqündə duraraq, Qafqaz millətlərinin qarşısında xırda məsələlərin müzakirəsi üçün zəminə hazırlayacaqlar. Ona görə biz zənn ediriz ki, bütün Zaqafqaziya və Şimali Qafqaziya cümhuriyyətlərinin nümayəndələrindən ibarət olan bu konfrans bir arzu ilə ruhlanmışlardır. Onlar hamı ixtilaflı məsələlərdə etilafa [razılığa] gələcəklərdir.

Zira bizim aramızda etilaf və saziş olmazsa, Qafqaziya millətləri adi həyata qədəm basa bilməzlər. Bizim millətlərin hürriyyəti onu tələb edir. O məsələlərə diqqət edək ki, onların həlli sülh və müsalimətlə [əmin-amanlıqla] yaşamağımıza səbəb olacaqdır. Biz zənn ediriz ki, burada onların həpsi bunu etiraf edirlər. Biz Azərbaycan nümayəndələri bu konfransa Qafqaziya millətləri arasında dostanə bir rabitə əmələ gətirmək niyyəti ilə gəlmişik və biz yenə ümid ediriz ki, bu konfransdan sonra münasibatımız [münasibətlərimiz] bu vaxtadək olduğundan daha sıxı, daha yaxın olacaqdır. Biz bu iman ilə buraya cəm olmuş Qafqaziya millətləri nümayəndələrini təbrik və onların işlərində müvəffəqiyyətli olmalarını arzu ediriz."

TƏTİL ƏTRAFINDA

Məşqət kəndində

Tətili-ümumi münasibətilə Məşqət [Maştağa] kəndlilərinin yığıncağı vaqe olub böylə bir qətnamə çıxarılmışdır:

"Biz Məşqət kəndliləri qeyri-müsəlman əmələlər [fəhlələr] tərəfindən elan edilmiş olan tətili-ümumi haqqında böylə qərara gəldik ki, həmin tətil Azərbaycan Hökuməti və istiqlaliyyəti əleyhinə olduğundan, ona heç bir növlə iştirak edilməməsindən ötrü ümum müsəlman əmələlərinə müraciət olunsun və bununla bərabər, hökumət və istiqlaliyyətimizi var qüvvəmizlə müdafiə və mühafizə edəcəyimizi yəmin ediriz."

Mədənlərdə

Ümum mədən dairəsində işləyən müsəlman əmələlər tərəfindən zeyldəki [aşağıdakı] qətnamələr qəbul edilib Hökumət rəisi və Məsai [Əmək] nazirinə göndərilmişdir:

Tovarişestva Sinay, 5-ci qruppa Kavalski, Rozin qardaşları Zabrat, Rotşild-Kasabov, Bibiheybət Rono, Mantaşov, Nobel, Moskovski-Kaspiyski, Milov, Tahirov, Moskovski-Balaxanski, Born yoldaşları 149-cu uçastok, Moskovski-Kavkazski, Mantaşov 175-ci uçastok, Klivenski 5-ci qruppa, Mirzəyev, Petro-Baku, Nobel qardaşları 1, 2, 3, 4, 5, 6, 7-ci uçastoklar, Rılski 17, 39-cu uçastok, Musa Nağıyev, Kokerev, Kaspi-Çernomor 27, 28, 37, 46, 107, 14, 15-ci uçastoklar, Bakı Neft Cəmiyyəti 19, Binəqədi Səlimov, Nobel, Musa Nağıyev, Binəqədi şirkəti, Olivneft və qeyriləri... Məzkur [adı çəkilən] mədənlərin ümum müsəlman əmələləri öz qətnamələrində tətilə iştirak etməyib, var qüvvələri ilə Azərbaycan Cümhuriyyəti və istiqlaliyyətini müdafiə edəcəklərini bəyanla işlərinə davam etməkdədirlər.

Bolşeviklərin həbs edilməsi

Hökumət tərəfindən edilən binagüzarlığa [sərəncama] görə, təhərri [axtarış] polisə müdiri Fətəlibəyov Əmələ Konfransı və Tətil Komitəsi üzvləri olan bolşevik Çurayev, Anaşkin, Mikoyan, Mirzoyan, Kovalı tövqif [həbs] və istintaq etmişdir. İstintaqda onlardan ancaq Anaşkin, Mirzoyan biri Ermənikəndində, o biri isə Belı-qorodda olduqlarını bildirib, qalanı isə evsiz, yersiz və müəyyən qulluqsuz olaraq yoldaşları evində yaşadıqlarını məlum etmişlərdir. Mirzoyan heç bir firqəyə mənsub olmayıb və tətildə iştirak etmədiyini bəyan etmiş, Çurayev özünü menşevik adlandırıb ancaq iqtisadi tətilə iştirak etdiyini bildirmişdir. Anaşkin, Mikoyan və Koval bolşevik olub tətilə iştirak etdiklərini bildirmişlərdir. Təhərri polis müdirinin binagüzarlığı ilə müqəssirlər Bakı Mərkəzi Həbsxanasına göndərilmişlərdir.

"BUGÜNKÜ VƏZİFƏMİZ"

(Tətil münasibətilə)

Rusiya inqilabi-kəbirinin [Böyük Rusiya inqilabının] bizə bəxşiş etdiyi istiqlaliyyəti var mövcudiyyətimizlə saxlamaq ən böyük vəzifələrimizdən biridir. Zahirdə özlərini bizə dost göstərənlər çoxdursa da, batində cavan Cümhuriyyətimizə kökündən balta çalıb yıxanlar da az deyildir, desəm, xəta etmərəm zənnindəyəm. Ona binaən [ona görə], lazımdır ki, dost ilə düşmənimizi tanıyaq, hansılar ki, o düşmənlər paytaxtımızda yaşadığı halda gecə və gündüz fikirləri cavan cümhuriyyətimizi məhv edib yerinə başqa bir zülümkar və qaniçici bir hökumət təyin etməkdədir. Odur ki, onlar da hər dürlü işlərə əl aparıb, gahi ümumi tətil edib cavan Cümhuriyyətimizin paytaxtını yaman hala salmaq və gahi də Hacı-Tərxan [Həştərxan] yolunu açdırıb neftimizi bolşeviklərə göndərmək və axırda da bolşevikləri paytaxtımıza gətirib salmaq istəyirlər. Əcəba, bu xain və istiqlalımızın ziddi olan bir taqım qaragüruhlar bu gün Hacı-Tərxan yolunu tətil vasitəsilə açdırıb bolşeviklərin gəlməyinə müavinət edərlərsə, sabah da başqa dövləti işlərimizə əl aparmazlarmı? İştə, lazımdır ki, istiqlalını sevən hər bir müsəlman istiqlalını möhkəm saxlamaqdan ötrü hökumətimizə hər dürlü müavinətdə bulunub bu kimi alçaq fikirli qaragüruhlara yol verməsin. İştə, bugünkü vəzifəmiz budur. Vəilla [yoxsa] bu qaragüruhlar işlərində davam edərlərsə, şübhəsiz ki, sonrakı peşmançılığın faydası olmaz. Ümidvarıq ki, hökumətimiz də bu kimi istiqlalımızın ziddi olan qaragüruhlara laqeydanə baxmaz.

Məhəmmədəli Əsədullazadə Tabaqçı

BAKI XƏBƏRLƏRİ

- Mayın 8 və 9-da Bakıya varid olan [gələn] ərzaq: buğda 3957 pud, un 773 pud, kartof 1086 pud, arpa 3750 pud, saman 380 pud, ot 88 pud. Mayın 10-da gətirilən ərzaq: buğda 2987 pud, un 1639 pud, arpa 2423 pud, saman 695 pud.

- Əxzi-əsgər [Hərbi çağırış] rəyasəti Bakı polismeysterinə müraciətən rica etmişdir ki, əsgərlik yaşlılar vaporlar və yaxud trenlərlə [qatarlarla] Bakıdan başqa yerə buraxılmasınlar.

Bir qız tapılıbdır

Sultan Suğra qızı nam [adlı] 10 yaşında bir qız tapılmışdır. Sahibi 15-ci Çənbərəkənd küçəsi, 5 nömrəli evdə Yusif Hüseynzadəyə (boyaqçı) müraciət etməlidir. Qızın rəvayətinə görə, ata-anası ölmüş imiş.

Bakı üçün kağız

Bakıda mövcud Naşirlər İttifaqı bu günlərdə Tiflisə bir nəfər nümayəndə göndərir ki, Finlandiyadan Bakıya kağız gətirmək mümkün olub-olmadığını müəyyən etsin. İngiltərə Komandanlığı və Finlandiya kağız firmaları nümayəndələri ilə olan müzakirat və müsahibədən məlum olmuşdur ki, Bakıya əyri [dolaylı] yollarla kağız gətirmək iki-üç aya kimi mümkün olar. Naşirlər həmin vasitə ilə bu günlərdə işə şüru edəcəklərdir [başlayacaqlar].

Müsri xəstəliklərə dair

Şəhərdə müsri [yoluxucu] xəstəliklər – səpmə yatalaq və qeyriləri bitdiyindən, həmin xəstəliklərlə mübarizə edən komitə buraxılmışdır.

Dəmiryol qurultayı

Mayın 15-də Bakıda ümum dəmiryol və seyri-səfain [gəmiçilik] xidmətçilərinin qurultayı dəvət edilmişdir. Həmin qurultayda Qafqaz, Zakaspi, Qara dəniz, Volqa, Baltik, Cənubi Zamorski yollarının qara [quru] və dəniz xidmətçiləri iştirak edəcəklərdir. Həmin qurultay aprelin 15-nə təyin edilmişdisə də, Odessanın bolşeviklər tərəfindən alınmasına görə təxir edilmişdi.

Qurultayda Bakı nefti və Azərbaycan Cümhuriyyəti pambığının çıxarılması məsələsi müzakirə ediləcəkdir. Neft ələlümum [başlıca olaraq] Avropa və Türkiyə şəhərlərinə göndəriləcəkdir. Burası[n]da hal-hazırda neftə artıq dərəcə ehtiyac hiss edilməkdədir. Neftin qiyməti o yerlərdə 35-dən 42 manata qədər satılacaqdır.

* Azərbaycan Dəmiryol İdarəsi tərəfindən dəmiryol kirayələri qiymətlərinin əskilməsindən ötrü bir layihə hazırlanmaqdadır.

* Bir para səbəblərə görə gecikmiş olan "Gənclər yurdu" məcmuəsi bu günlərdə genə Tiflisdə çıxmasına davam edəcəkdir.

İttifaqa dəvət

Dəlləklər İttifaqı bununla Bakı və ətrafında yaşayan dəlləklərin sinifi ittifaqa yazılmaqdan ötrü Spasski və Nijni-Priyutski küçələrin küncündə Xaliq Gülhüseyn oğlunun dəllək dükanına gəlməklərini rica edir.

- Bakı qubernatorunun binagüzarlığına [sərəncamına] görə İvan Çaşin, İvan Putyavin, Armenak Allahverdiyev, Aşot Qriqoryan, Artyom Ter-Mosisov müzirr [zərərli] şəxslər olub, asayişi-ümumiyə xələl yetirməkdə müttəhim edildiklərindən, hərəsi üç ay həbsə məhkum edilmişlərdir.

Məhkəməyə cəlb

Bakı qubernatorunun binagüzarlığına [sərəncamına] görə, sabiq Bakı qalabəyisi [komendantı] Yadigarov və müavini Zalsman xidmətlərində sui-istemalda [sui-istifadə etməkdə] ittihamla təhti-mühakiməyə alınırlar.

- Sabiq təhərri [axtarış] polis müdiri müavini Xijnyakov xidmətindən sui-istifadə etdiyindən Bakı nahiyə məhkəməsi müddəiyi-ümumi[si] [prokuroru] tərəfindən məhkəməyə cəlb edilmişdir.

Ərzaq işləri

Azərbaycan Cümhuriyyəti Ərzaq naziri Bakı qubernatoruna məlum etmişdir ki, axır vaxtlar Kürkəndi, Zirə, Buzovna, Nardaran kəndlərindən türkmanların külli miqdarda un, qab və qeyri zəruri şeylər aparmaqda olduqları müşahidə olunmuşdur. Böylə hərəkətin hökumətə və ərzaq işlərinə böyük zərər olduğunu göstərərək, Nəzarət qubernatordan tezliklə onun önü alınmasını rica etmişdir.

Qaçqınları işə cəlb etmək

Ümuri-Xeyriyyə və Nafiə Nəzarəti [Sosial Təminat Nazirliyi] Bakı qubernatoruna müraciətən uyezdlərdə [qəzalarda] nə qədər əmələyə [işçiyə] ehtiyac hiss edildiyi haqqında məlumat istəmişdir ki, həman işlərə qaçqınlardan göndərilsin. Qaçqınların ailələri isə hökumətdən almaqda olduqları maaşı yenə alacaqdırlar.

AZƏRBAYCANDA

Dərə Zarat kəndlilərinin ricası

Quba uyezdi [qəzası] Dərə Zarat kəndi əhalisinin vəkilləri qubernatora müraciətən məlum etmişlər ki, Saray uçastoku pristavı onların Dəvəçi pristavlığından çıxıb Saray uçastokuna tabe olmaqlarını tələb edir. Vəkillər; böylə binagüzarlıq [sərəncam] ali hökumət müəssisələrindən olmayıb və bunun hər cəhətdən camaata zərər olduğunu nəzərə alaraq, həmin binagüzarlığın ləğv edilməsini qubernatordan [rica] edirlər.

- Quba uyezdi Qasımkənd camaatının vəkilləri Bakı qubernatoruna müraciətən məlum etmişlər ki, köhnə hökumət vaxtında onların yerləri alınıb Rusiyadan köçürülmüş olan xaxollara verilmişdi. Hürriyyət alındıqdan sonra xaxollar həman yerlərin icarə pullarını verməyib, Rusiyaya köçüb getmişlərdir. İndi Azərbaycan Hökuməti məmurları həman pulları məzkur [adı çəkilən] kəndlilərdən istədiklərindən, onlar qüvvələri olmadığından, pulların alınmamasını qubernatordan rica edirlər.

- Qubernator Səhhəti-Ümumiyyə Nəzarətinə [Səhiyyə Nazirliyinə] müraciətən Quba uyezdində yatalaq xəstəliyi ilə mübarizə etməkdən ötrü 100 min manat təxsis edilməsini [ayrılmasını] rica etmişdir.

Müsri xəstəliklərlə mübarizə

Bakı qubernatoru Səhhəti-Ümumiyyə Nəzarətinə müraciətən Göyçay uyezdində müsri [yoluxucu] xəstəliklərlə mübarizə etməkdən ötrü ciddi tədbirlər ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

Cinayətlər haqqında

Daxiliyyə Nəzarəti Bakı qubernatoruna müraciətən rica etmişdir ki, uyezdlərdə vüqu bulmaqda olan cinayətlər və qeyri sui-hərəkat haqqında hər uyezddən ələhiddə olaraq hər ay Nəzarətə müfəssəl surətdə məlumat və siyahı təqdim edilsin.

Yüzbaşıdan şikayət

Bakı uyezdi Siyəzən kəndi camaatı Bakı qubernatoruna bir ərizə verib həman kəndin yüzbaşısı Balaəli Zülfüqar oğlundan şikayət edirlər. Məzkur [adı çəkilən] yüzbaşı kənd camaatına nəhayət dərəcə zülüm və əziyyəti rəva görüb, döyüb incitməklə bərabər, onlardan külli miqdarda rüşvət və "vergilər" alırmış.

Xəsarətin miqdarı

Cavad uyezdi Xıllı uçastokunda bolşevik və ermənilərin hücumundan 24 kəndin 10 milyon manatdan ziyadə xəsarətə uğradığı barəsində qubernatora müfəssəl surətdə siyahı və məlumat təqdim edilmişdir.

Qazaxdan

Mehdi ağa Qiyasbəyzadənin vəfatı

May ayının 6-da Mehdi ağa Qiyas-bəyzadənin yaralanmağı bizə ziyadə təsir etdi. Belə ki, vətən və millət yolunda çalışan Mehdi ağa Qiyasbəyzadəni bivicdanlar və bədəfkarlar [cinayətkarlar] tərəfindən yaraladılar. Bu şəxs məşhur bir adam olub, öz vəzifəsini kamalınca ifa edirdi. "Padatnoy inspektor" [vergi müfəttişi] ümum əhaliyə bacardığı hörməti müzayiqə etməzdi [əsirgəməzdi]. Müşarünileyh [haqqında danışılan şəxs] may ayının 5-də zərbənin şiddətindən dari-bəqaya rehlət buyurdu [əbədiyyət diyarına köçdü]. Həqiqət, bədəfkarlar buna bica yerə zərbə çaldılar. Hökumətimizdə böylə adamların artıq dərəcədə lazım olduğu halda, düşmənlər əlində fənaya getməsi baisi-təəssüfdür. Heyfa ki, biz müsəlmanlar böylə şəxslərin vətənə və millətə xidmətini anlamayıb, onlara zərbələr çalıb qara torpaqlar altında dəfn olunmasına səbəb olurduq. Mərhumun təşyiyi-cənazəsinə [cənazəsinin yola salınmasına] biz darülmüəllimin [seminariya] şagirdləri öz müəllimlərimiz və mürəbbimiz [tərbiyəçimiz] ilə olub axırıncı borcumuzu onun haqqında yerinə yetirməyi lazım bilib iştirak eylədik. Bu barədə müdirimiz Firidun bəy Köçərli həzrətləri bir nitq deyib, sonra şagirdlərdən Əli-məhəmməd Hüseynzadə nitqlər söylədilər. Axırda yenə şagirdlərdən Yusif Nəbizadə "Qurani-şərif"dən bir parça oxuyub, camaat dağılmağa başladılar.

Məhəmmədzadə

BƏYANİ-TƏŞƏKKÜR

Bundan üç gün əvvəl iqamət etdiyim [yaşadığım] evdə ailəmə aid böyük bir mücəvhərat oğurluğu olmuşdur. Xəfiyyə (sısknoy) [axtarış] polis idarəsinin ciddi və bəsirətkarənə fəaliyyəti nəticəsində dün oğrular tövqif [həbs] edilib, oğurlanan şeylər dəxi mənə verilmişdir. Xəfiyyə (sısknoy) polis baş məmuru (naçalniki) [rəisi] möhtərəm Həsən bəy Fətəlibəyov cənablarının hər kəscə, bilxassə bu axır zamanlardakı Bakı hadisələrində məlum olan hümmət və qeyrəti özümün başına gələn bir vəqə ilə də məndə müma-ileyhə [adı çəkilən şəxsə] qarşı qüvvətli bir qənaət hüsula gətirdiyi üçün işbu bir neçə sətir yazılarımla ələnən [açıqca] Həsən bəyə və yoldaşlarına bəyani-təşəkkür eyləməyi özümə borc bildim.

Parlaman əzasından [üzvlərindən]:
Qaraağazadə Əhməd Həmdi

Müvəqqəti müdir:
Hacıbəyli Üzeyir

TRANSLİTERASİYA İLƏ BAĞLI QEYD VƏ ŞƏRHLƏR

Teleqraf xəbərləri

"Kuin Elizabet": Britaniya donanmasına məxsus zirehli hərbi gəmi "Queen Elizabeth" nəzərdə tutulur. Qəzetdə "Krım Yelizabet" kimi getmişdir.

"drednot" (drednout): zirehli hərbi gəmi.

Qəzetələrdən

"Daxiliyyə naziri Camal bəy": Camal Keşmir nəzərdə tutulur.

"sultan həzrətlərinin iradəsi ilə…": Osmanlı sultanı VI Məhməd (Məhməd Vəhidəddin) nəzərdə tutulur.

"Votkinski zavod": Udmurtiyanın Votkinsk şəhərində dəmir emalı zavodu. Əsası XVIII əsrin ortalarında qoyulmuşdur. Rusiyada Vətəndaş müharibəsi illərində zavod dəfələrlə müxtəlif qruplar tərəfindən ələ keçirilərək qarət edilmişdir.

Vükəla Şurasında

"A) Hamı istifadə edir…": burada bəndlər hərflərlə işarələnərkən, ərəb əlifbasının hərf sırasına (əlif, bə, tə) riayət edilmişdir.

Nəzarətlərdə

"üşr": kənd təsərrüfatı məhsullarından onda bir miqdarında alınan vergi.

Bakı xəbərləri

"Spasski və Nijni-Priyutski küçələrin küncündə": Bakıda, indiki Zərgərpalan və Süleyman Rəhimov küçələri.